## 22 İyul Milli Mətbuat və Jurnalistika Günüdür

**Hər bir xalqın ictimai düşüncə tarixində və mədəni-intellektual inkişafında mətbuatın yaranması və inkişafı önəmli yer tutur. Dövlət müstəqilliyini itirmiş, müstəmləkə şəraitində yaşamış xalqların isə öz varlığını qoruyub saxlaması və istiqlalına qovuşmasında onun milli mətbuatı misilsiz rol oynayır. Anadilli mətbuatımız milli oyanış və dövlətçiliyin bərpası prosesində maarifləndirici və səfərbəredici missiyası ilə həmişə cəmiyyətin önündə getmiş, xalqın gələcək yoluna gur işıq salmışdır. Bu baxımdan Azərbaycan milli jurnalistikası son əsryarımlıq tariximizin canlı salnaməsidir.**




# Azərbaycan milli jurnalistikası son əsryarımlıq tariximizin CANLI SALNAMƏSİDİR

Azərbaycanda 1875-ci il iyulun 22-də ilk anadilli qəzet işıq üzü görmüşdür. Həmin gün mədəni inkişaf tariximizə milli mətbuatın yaranması günü kimi daxil olmuş və XX əsrin son onilliyində dövlət müstəqilliyin bərpasının astanasında rəsmi olaraq Milli Mətbuat və Jurnalistika Günü elan edilmişdir.

Beləliklə, 1990-cı ildən iyulun 22-si ölkəmizdə hər il ümumxalq bayramı kimi təntənə ilə qeyd edilir. Milli-mədəni oyanış və tərəqqi tariximizin bu öyünclü ildönümlərində xalqımız milli jurnalistikamızın keçib gəldiyi yola, qazandığı uğurlara, çağdaş durumuna və gələcək inkişaf yönünə nəzər salır. Demokratik inkişaf yolunda azad sözün, aşkarlığın imkanlarından daha yaxşı bəhrələnməklə bağlı qarşıda duran hədəflərə diqqət yetirilir.

Dövlətçiliyimizin itirildiyi, milli varlığımızın hərtərəfli basqılara məruz qaldığı XIX əsrin “zülmət səltənəti”ndə öz xalqının nicatı üçün işıqlı bir səmt axtaran və bu yolda hər cəfaya dözən, dövrün az sayda milli ziyalısından biri olan Həsən bəy Zərdabinin 1875-ci il iyulun 22-də böyük çətinliklə ilk nömrəsini çap etdirdiyi və sonrakı 2 ildə 56 sayının nəşrinə nail olduğu “Əkinçi” qəzeti ötən 144 illik bir dövrdə həqiqi xalq tribunası olmaq, mətbu sözlə xalqın taleyində fəal iştirak etmək missiyasının gerçəkləşdirilməsində möhkəm və örnəyə çevrilmiş bir özül yaratmışdır. Sonrakı dövrlərdə isə müəyyən fasilə və davamlılıq, müxtəlif ictimai-siyasi sistemlərin verdiyi imkanlar şəraitində Azərbaycan milli mətbuatı həqiqət carçısı olmuş, tərəqqi yollarına işıq salmış, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində önəmli rol oynamışdır.

Azərbaycanda maarifçilik hərəkatının formalaşmasında mühüm rol oynamış “Əkinçi”nin əsas məqsədi fanatizmi, cəhaləti aradan qaldırmaq, xalqı elmə, maarifə, tərəqqiyə çağırmaq, onun elmi-mədəni səviyyəsini yüksəltmək olmuşdu. Qəzetin ərsəyə gəlməsində Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani və başqa ziyalılar böyük səy göstərmişlər. Dövrünün görkəmli maarifçiləri olan bu şəxsiyyətlər “Əkinçi” qəzeti səhifələrində öz maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına çalışmışlar.

Mütərəqqi ideyaların carçısı və tribunası olan “Əkinçi” elm, maarif və mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafına, yeni tipli məktəblərin yaradılmasının zəruriliyinə aid materiallar dərc etmişdir. Qəzetin qazandığı ən böyük uğur isə, ilk növbədə, onun dilinin xalq dilinə yaxınlığı, sadəliyi və səlisliyi olmuşdu. Xalqın elmi və mədəni cəhətdən tərəqqi etməsi uğrunda çalışan “Əkinçi” qadın azadlığı və təhsili ideyasını təbliğ edən ilk Azərbaycan qəzeti olmuşdur. O, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar etmişdir. Qəzetdə təbiət elmləri və kənd təsərrüfatının inkişafı ilə bağlı elmi-kütləvi məqalələr verilmişdir.

“Əkinçi” Azərbaycandan kənarda da-- Gürcüstan, Dağıstan, Özbəkistan və başqa yerlərdə yayılmışdı. Çox ciddi senzura altında cəmi 56 nömrəsi çapdan çıxan qəzetin nəşri 1877- ci ildə ciddi maneələr nəticəsində dayanmışdır. Milli demokratik mətbuatın “Əkinçi” qəzeti tərəfindən bəyan edilmiş başlıca prinsipləri--maarifləşmə, müasirləşmə, məfkurə saflığı, ümummilli məqsədlərin təbliği, bəşəri dəyərlərin milli ənənələrlə üzvi vəhdəti, ədəbi dilin danışıq dilinə yaxınlaşdırılması, hadisələrin obyektiv işıqlandırılması Azərbaycanda milli demokratik mətbuatın gələcək inkişafı üçün təməl daşları rolunu oynamışdır.

1877-ci ildə “Əkinçi” bağlandıqdan sonra müxtəlif səylər göstərilməsinə baxmayaraq, Azərbaycanda bir müddət anadilli mətbu orqan çıxmamışdır. Ölkədə cərəyan edən ictimai proseslər və cari məsələlər bir müddət yerli rusdilli mətbuatda öz əksini tapmışdır. Bakıda rus dilində çıxan ilk qəzet isə birinci nömrəsi 1871-ci ilin mart ayında işıq üzü görən “Bakinski listok” olmuşdu. 1876-cı ildə ikinci rusdilli qəzet “Bakinskiya izvestiya” nəşrə başlamışdır. Rusdilli nüfuzlu “Kaspi” qəzetinin 1897-ci ildən naşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürmüş və həmin dövrdən ona redaktorluğu Əlimərdan bəy Topçubaşov, sonra isə Əlibəy Hüseynzadə etmişdir. 1907-ci ilədək qəzetin faktiki redaktoru, istiqamət verəni və daimi yazarı isə Həsən bəy Zərdabi olmuşdur. Rus dilində nəşr edilən qəzetlər ayrı-ayrı dövrlərdə Azərbaycan səhifəsi yaratmaq təşəbbüsü göstərsə də buna nail ola bilməmişdilər.



1879-cu ildə Hacı Səid Əfəndi Ünsizadə Tiflisdə “Ziyayi-Qafqaziyyə” qəzetini çıxarmağa nail olmuşdur. Qəzetin cəmi 104 nömrəsi çıxdıqdan sonra 1880-ci ildə çapını dayandırmışdır. 1883--1891-ci illərdə Tiflisdə “Əkinçi” yolunu davam etdirən “Kəşkül” qəzet və jurnal şəklində çıxmışdır. “Ziya” (“Ziyayi-Qafqaziyə”) və “Kəşkül”, anadilli nəşrləri mətbuat tariximizin davamı faktları kimi önəmlidir.

XX əsrin əvvəllərində isə Rusiya imperiyasında güclənən demokratik hərəkatın dalğalarında yaranan mətbuat orqanları Azərbaycanda milli-azadlıq hərəkatının əsas istiqamətverici qüvvəsini təşkil etmiş, mədəni oyanış, özünüdərk proseslərinin aparıcı vasitələrindən biri kimi fəaliyyətini genişləndirmişdir. Milli siyasi mətbuatın təşəkkül dövrü adlandırılan 1905--1907-ci illərdə işıq üzü görən yeni dövri nəşrlər Azərbaycan cəmiyyətində ictimai-mədəni və siyasi-məfkurəvi fəallığın artırılmasında da mühüm rol oynaymışdır. “Şərqi rus” qəzeti Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Ömər Faiq Nemənzadə , Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əli Nəzmi kimi böyük maarifçiləri öz ətrafında birləşdirə bilmişdir.

“Şərqi rus”un ardınca “Həyat”, “Füyuzat”, “Molla Nəsrəddin”, “Dəbistan”, “Təzə həyat”, “Təkamül”, “Həqiqət”, “Şəlalə”, “Zənbur”, “Açıq söz”, “Məktəb”, “Dirilik” kimi qəzet-jurnallar xalqın milli özünüdərk hissinin formalaşmasına xidmət göstərmişdir. Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə 1906-cı il aprelin 7-də Tiflisdə həftəlik illüstrasiyalı ilk Azərbaycan satirik jurnalı – “Molla Nəsrəddin” işıq üzü görmüşdür. “Molla Nəsdəddin” jurnalı 1906--1918-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922--1931 illərdə Bakıda nəşr edilmişdir. Mütərəqqi ideyaların carçısı olan “Molla Nəsrəddin” jurnalı müstəmləkəçilik siyasətini, geriliyi, mövhumatı amansız satira atəşinə tutmuş, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparmışdır.

Kəskin və cəsarətli tənqidi çıxışlarına, acı həqiqətləri söylədiyinə görə daim hücum və təqiblərə məruz qalan jurnalın nəşri çar senzurası tərəfindən dəfələrlə dayandırılmış, bir sıra nömrələri müsadirə olunmuş, redaktoru bir neçə dəfə məhkəmə məsuliyyətinə cəlb edilmiş, cərimələnmişdir. Lakin bütün təqib və təzyiqlərə baxmayaraq, “Molla Nəsrəddin”in haqq səsi çox keçmədən Qafqazın hüdudlarını aşıb Rusiyada, türk aləmində, bütün Yaxın və Orta Şərqdə eşidilmişdir. Jurnal Mərkəzi Asiyada, Krımda, İrəvan, Kazan, Ufa, Həştərxan, Orenburq, Təbriz, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlküttə və sair şəhərlərdə yayılmışdır.

“Molla Nəsrəddin”in müasir ədəbiyyat, maarifləşmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalla əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq istiqamətini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də “mollanəsrəddinçilik” adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdır. Mollanəsrəddinçilər Azərbaycan publisistikasını janr və üslub rəngarəngliyi ilə zənginləşdirərək onun inkişafında misilsiz rol oynamışlar.

Əsrin əvvəllərində Azərbaycanda çıxan dövri mətbuat orqanları, sözsüz ki, milli oyanış, milli özünüdərk proseslərinin aparıcı vasitələrindən biri olmuşdur. Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da mühüm rolu olmuşdu. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbər xadimlərindən Məmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Yusib bəy Nəsibbəylinin, Fətəli xan Xoyskinin və digərlərinin həm lider kimi formalaşmasında, həm də siyasi fəaliyyətində milli mətbuatın misilsiz rolu olmuşdur.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir sıra sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yaranmış, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirilmişdir. O dövrdə ümummilli platformadan çıxış edən “Azərbaycan” qəzetinin dahi Üzeyir bəy Hacıbəyov tərəfindən nəşr edilməsi ictimai-siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğunun ən bariz nümunəsidir. Əslində, AXC dövrü mətbuatının fəaliyyəti Həsən bəy Zərdabi ideyalarının, “Əkinçi” prinsiplərinin həyata keçirilməsinin yeni və çox mühüm mərhələsi olmuş, təəssüf ki, bu proses çox çəkməmişdir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox kommunist ideologiyasının diqtəsi altında davam etmişdir. “Kommunist”, “Bakinski raboçi”, “Vışka”, “Azərbaycan gəncləri” və “Molodyoj Azerbaydjana”, “Sovet kəndi”, “Bakı”--“Baku, “Ədəbiyyat və incəsənət” kimi mətbuat orqanlarında kommunist ideologiyası ilə bağlı məsələlərlə yanaşı, respublikanın iqtisadi, elmi, mədəni inkişafı ilə əlaqədar problemlər də öz əksini tapmışdır. Xalqın həyatının işıqlandırılmasında, ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikrə də yer verən, o dövr üçün, doğrudan da vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rolu olmuşdur.

Bu qəzetlərin xalqımızın dil, ədəbiyyat və mədəniyyətinə həsr etdiyi, azərbaycançılıq ideyasına xidmət edən yazıları totalitar rejim şəraitində belə Azərbaycan jurnalistikasının mövqeyini nümayiş etdirmişdir. Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, o öz milli varlığını qoruyub saxlaya bilmiş, əldə etdiyi zəngin ənənələri davam etdirərək, respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Məhz bu dövrdə jurnalistikanın tamamilə yeni bir sahəsi--teleradio jurnalistikası təşəkkül tapmışdı.

Ötən əsrin son onilliyinə yaxın SSRİ-də başlayan yenidənqurma havası Azərbaycana da çatmış və ictimai mühitə kəskin təsir göstərmişdir. Millətin dirçəliş dövrü kimi tarixdə qalan 1989-cu ildə “Azərbaycan” qəzeti yaradılmışdı. Müstəqil mətbuatın “qaranquşları” hesab edilən “Səhər” və “Azadlıq” qəzetləri işıq üzü görmüşdür. 1990-cı ildə “Zerkalo”, “Səs”, 1991--92-ci illərdə “Yeni Müsavat”, “İki sahil”, “525-ci qəzet”, “Yeni Azərbaycan” qəzetləri nəşr olunmağa başlamışdır.

Azərbaycanın dövlət müstəqilliyi qazanması ilə ölkəmizdə söz azadlığı prinsipləri rəsmən təsbit olundu, KİV haqqında demokratik ölkələrin təcrübəsini əks etdirən mükəmməl qanun qəbul edildi. Azərbaycan Konstitusiyasında söz və mətbuat azadlığının təməl prinsipi olaraq əksini tapması ölkədə medianın azad və güclü bir cəmiyyət institutu kimi formalaşmasına təkan verdi. Azərbaycanda insan hüquqları, siyasi plüralizm, vətəndaş cəmiyyətinin mövcudluğu demokratik institut kimi formalaşdırılmış müstəqil kütləvi informasiya vasitələrinin fəaliyyətində, onların inkişafı üçün yaradılan hüquqi təminatlarda öz təsdiqini tapdı.

1998-ci il avqust ayının 6-da Prezident Heydər Əliyevin imzaladığı xüsusi sərəncamla Azərbaycanda mətbuat üzərindən senzura götürüldü. 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri (KİV) haqqında Qanun təkmilləşdirildi. Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin həyata keçirdikləri ardıcıl, sistemli tədbirlər ölkənin demokratik mediasının problemlərinin həllində, onun sonrakı inkişafında önəmli rol oynadı.

Azərbaycanda Mətbuat Şurasının formalaşması media sahəsində pərakəndəliyi aradan qaldırmağa şərait yaratdı. Jurnalistlərin Peşə Kodeksinin yaradılması isə media qurumları arasında problemlərin həllinə müsbət təsir göstərdi. Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası kimi mühüm bir sənəd təsdiq olundu. Konsepsiyaya uyğun olaraq, 22 may 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı.

Hazırda respublikada çoxsaylı və müxtəlif səpkili qəzet və jurnallar nəşr olunur, internet mediası sürətlə inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Bu gün azad, demokratik media Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinin, ümumi tərəqqinin informasiya təminatının yaradılması missiyasını uğurla davam etdirir.

***Həsən HƏSƏNOV,***
***“Xalq qəzeti”nin baş redaktoru,***
***Əməkdar jurnalist***